● Gələcəyə dəstək

# "Yüksəliş" müsabiqəsi gənclərdə idarəetmə təcrübəsi formalaşdırır

**Ulu Öndər Heydər Əliyevin illər öncə əsasını qoyduğu gənclər siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Onun rəhbərliyi altında həyata keçirilən dövlət siyasəti gənclərin hərtərəfli inkişafına hesablanmışdır.**




Gənclərin bütün sahələrdə qazandıqları uğurlara, cəmiyyətdə artan nüfuzuna və roluna əsaslanıb inamla deyə bilərik ki, gənclər siyasəti ölkədə həyata keçirilən dövlət siyasətinin ən mühüm tərkib hissəsidir.

Prezident İlham Əliyevin gənclərin potensialının gerçəkləşməsinə, onların vətənpərvər, savadlı kadr kimi hazırlanmasına, gənc ailələrin sosial təminatına yönələn tədbirləri dövlətin uzaqgörən siyasətinin aydın göstəricisidir. Daim yenilənən, təkmilləşdirilən dövlət gənclər siyasəti gənc nəslin ictimai-siyasi həyatdakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, bütövlükdə fəal gəncliyin formalaşmasına hərtərəfli şərait yaradıb.

Prezident İlham Əliyevin rəhbərliyi altında gənclərin təşkilatlanması və onların ictimai fəaliyyətinin stimullaşdırılması istiqamətində daim mühüm və zəruri addımlar atılır. Dövlət başçısının 2011-ci il 19 dekabr tarixli müvafiq sərəncamı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu yaradılmışdır. Fondun qarşısında gənclər siyasəti ilə bağlı elm, təhsil, mədəniyyət və digər sosial sahələrə yönəlmiş ictimai və sosial əhəmiyyətli, o cümlədən beynəlxalq səviyyədə həyata keçirilən layihə və proqramları qrant şəklində maliyyələşdirmək məqsədi qoyulub. 2018-ci ildə fond yenidən təşkil edilərək Azərbaycan Respublikasının Gənclər Fondu adlandırılıb.

Gənc kadrların inkişafı və daim önə çəkilməsi siyasəti indi olduqca mühüm əhəmiyyət daşıyır. Ölkə gənclərinin hərtərəfli inkişafına ən yüksək səviyyədə diqqət və qayğı göstərən Prezident İlham Əliyevin 2019-cu il 26 iyul tarixli sərəncamı ilə "Yüksəliş" müsabiqəsi təsis edilib. Bu müsabiqənin təşkilində və keçirilməsində əsas məqsəd intellektual səviyyəsi və idarəçilik keyfiyyətləri yüksək olan perspektiv rəhbər şəxslərin müəyyən edilməsi, dəstəklənməsi və ölkədə kadr ehtiyatı bankının yaradılmasıdır. Belə mühüm bir müsabiqənin keçirilməsi gələcəkdə xalqımızın və dövlətimizin inkişafı naminə çalışacaq kadrların bilikli və bacarıqlı olmasına böyük töhfələr verir. Qarşıdakı dövrdə qazanılacaq uğurlara hesablanmış, obyektivlik, şəffaflıq, bərabər imkanlar prinsipləri əsasında keçirilən "Yüksəliş" müsabiqəsi istedadlı gənclərin aşkarlanmasına hərtərəfli şərait yaradır. Müsabiqə gənclərimizin inkişafına və tərəqqisinə əlverişli zəmin yaradan mühüm və zəruri bir tədbirdir. Belə müsabiqələr yüzlərlə idarəetmə bacarığı yüksək olan gəncləri aşkara çıxarır. İnamla deyə bilərik ki, "Yüksəliş" müsabiqələrində qalib gəlmiş gənclər gələcəkdə xalqımız və dövlətimizin tərəqqisi və inkişafı naminə çalışacaqlar. Bacarıqları sayəsində xalqımızın inkişaf tarixinə yeni və uğurlu səhifələr yazacaqlar.

Müsabiqədə ali təhsilli, ən azı 2 il idarəçilik təcrübəsinə malik Azərbaycan vətəndaşları iştirak edə bilərlər. Onu da qeyd edək ki, bu müsabiqə gənclərimiz üçün növbəti bir sınaqdır. Onlar bu müsabiqələrdə bilik və bacarıqlarını ortalığa qoyaraq daha yaxşı nəticə göstərmək uğrunda mübarizə aparırlar. Deməli, gənclərimiz müsabiqə zamanı həm də mübarizliyi, əzmkarlığı öyrənirlər. Gənclərimiz belə müsabiqələrdə iştirak etdikcə daha da püxtələşir və həyat təcrübəsi qazanırlar. Günlər keçdikcə daha hazırlıqlı və bacarıqlı olurlar. Onlar idarətmə vərdişlərinə də yiyələnməyə çalışırlar. Təbiidir ki, idarəetmə təcrübəsi dedikdə, mülkiyyət formasından asılı olmayaraq işlədiyi qurumda rəhbərlik mövqeyində praktiki təcrübəyə malik, bir və ya daha çox insanın, layihə qruplarının, resursların, podratçıların və digərlərin idarə olunması nəzərdə tutulur.

"Yüksəliş" müsabiqəsi gənclərimiz üçün sınaq olmaqla yanaşı, həm də bir şansdır. Əslində, müsabiqə daim yeniliyə can atan Azərbaycan gəncliyini uğurlara aparan bir yoldur. Buna görə də özündə güc tapan insanlarımız "Yüksəliş" müsabiqəsinə həvəslə qoşulur, bacarığını ortalığa qoyaraq uğru qazanmağa çalışırlar. Onlar müsabiqənin yaratdığı imkandan istifadə edib idarəetmə bacarığını inkişaf və təkmilləşdirməyə çalışırlar. Gənclərimiz "Yüksəliş"ə qoşulmaqla bu günlərinin və sabahlarının sağlam və şəffaf bünövrəsini qoyurlar.

Müsabiqə 5 mərhələdə keçirilir. Bu mərhələləri də uğurla keçən qaliblər müsabiqə bitdikdən sonra idarəçi rəhbərlərlə fərdi inkişaf proqramı çərçivəsində birbaşa işləmək imkanı əldə edirlər. "Yüksəliş" müsabiqəsində qarşıya qoyulan məqsədlərdən biri də gənclərin idarəetmə bacarığını müəyyənləşdirmək və inkişaf etdirməkdir. Azərbaycanda idarəçilik vərdişləri olan və öz potensialına güvənən bütün vətəndaşlar müsabiqədə iştirak edirlər. Böyük təşkilatçılıqla keçirilən bu müsabiqə Azərbaycanda kadrların bilik və bacarıqlarının daim inkişaf etməsinə layiqli töhfələr verəcək.

"Yüksəliş" müsabiqəsi gələcək karyerasını qurmaq və ölkənin gələcək taleyində mühüm rol oynamaq istəyən gənclərimiz üçün yaradılmış çox geniş imkandır. Əminliklə deyə bilərik ki, müsabiqənin yaratdığı bu imkandan istifadə edən gənclərimizin yüksəlmək arzusu uğurla həyata keçəcək. "Yüksəliş" müsabiqəsi gənclərimizi daim yüksəklərə, zirvələrə ucaldacaq.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2024.- 6 iyun, № 118.- S.11.